*Azərbaycan Respublikası ədliyyə nazirinin*
*«03 »*
*____mart___2007-ci il tarixli 5-T №-li*

*əmri ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin İstintaq idarəsi haqqında

# Ə S A S N A M Ə

## I. Ümumi müddəalar

1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin İstintaq idarəsi (bundan sonra - İdarə) Azərbaycan Respublikası Ədliyyə Nazirliyi mərkəzi aparatının müstəqil struktur qurumudur.

2. İdarə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının cinayət və cinayət-prosessual qanunvericiliyini, «Ədliyyə orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə»ni, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarını, həmçinin Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin (bundan sonra - Nazirlik) kollegiyasının qərarlarını, Nazirlik üzrə əmr və sərəncamları, habelə bu Əsasnaməni rəhbər tutur.

3. İdarə fəaliyyətini insan və vətəndaş hüquqları və azadlıqlarına hörmət, qanunçuluq və humanizm prinsipləri əsasında qurur.

4. İdarə fəaliyyətini Nazirliyin sisteminə daxil olan qurumlar, prokurorluq, hüquq-mühafizə və digər dövlət orqanları ilə əlaqəli həyata keçirir.

5. İdarə müvafiq möhürə və ştamplara malikdir.

## II. İdarənin fəaliyyət istiqamətləri

6. İdarənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

qanunvericiliklə müəyyən edilmiş hallarda cinayət işləri üzrə ibtidai istintaq aparır;

törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatlara baxır, cinayət işinin başlanması və ya cinayət işinin başlanmasının rədd edilməsi məsələlərini həll edir;

qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## III. İdarənin vəzifələri

7. İdarə bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

İdarənin icraatına daxil olan törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatlara baxmaq, cinayət işi başlamaq və ya cinayət işinin başlanmasını rədd etmək, zərurət olduqda materialların aidiyyəti orqana göndərilməsi məsələsini həll etmək;

başlanmış cinayət işləri üzrə qanunvericiliklə müəyyən edilmiş müddətdə tam, hərtərəfli və obyektiv ibtidai istintaq aparmaq və digər prosessual hərəkətləri həyata keçirmək;

pozulmuş insan və vətəndaş hüquq və azadlıqlarının bərpa edilməsini, dövlətin mənafelərinin qorunmasını, cinayətin törədilməsi nəticəsində vurulmuş maddi ziyanın ödənilməsini təmin etmək;

aidiyyəti dövlət orqanlarının istintaq və əməliyyat-axtarış xidmətləri ilə qarşılıqlı fəaliyyətin həyata keçirilməsini, cinayət

işlərinin ibtidai istintaqında əməliyyat fəaliyyətinin nəticələrindən səmərəli istifadə edilməsini təmin etmək;

ibtidai istintaq məlumatlarının yayılmasına yol verməmək;

İdarənin səlahiyyətlərinə aid məsələlər üzrə ərizə və şikayətlərə, idarə, müəssisə və təşkilatların müraciətlərinə baxmaq;

dövri statistik və digər hesabatları tərtib etmək, cinayət işlərinin və materialların uçotunu aparmaq;

cinayət işlərinin, materialların və maddi sübutların saxlanmasını təmin etmək;

cinayət işlərinin ibtidai istintaqı zamanı ədliyyə orqanları işçilərinin fəaliyyətində aşkar olunan ciddi pozuntularla bağlı Nazirliyin rəhbərliyinə məlumat və təqdimatlar vermək;

İdarə işçilərinin şəxsi təhlükəsizliyi üzrə tədbirlər barədə təkliflər vermək;

hüquqi maarifləndirmə işində iştirak etmək;

fəaliyyət istiqamətləri üzrə və Nazirliyin rəhbərliyinin tapşırıqları əsasında digər vəzifələri yerinə yetirmək.

## IV. İdarənin hüquqları

8. İdarə öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

cinayət işlərinin ibtidai istintaqı ilə əlaqədar qanunvericiliklə müəyyən edilmiş hüquqları həyata keçirmək;

dövlət orqanlarına, dövlət və qeyri-dövlət təşkilatlarına, Nazirliyin sisteminə daxil olan qurumlara müraciət etmək, onlara sorğular vermək və məlumatlar almaq;

İdarənin fəaliyyət istiqamətləri üzrə qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək;

istintaq hərəkətlərinin aparılmasında müsbət təcrübəni daim öyrənməklə tətbiq etmək;

cinayət işlərinin ibtidai istintaqı zamanı aşkar edilmiş xarakterik nöqsanların aradan qaldırılması məqsədilə seminarlar keçirmək, metodik vəsaitlər hazırlamaq;

İdarənin fəaliyyət istiqamətlərinə uyğun olaraq həyata keçirilən işin təkmilləşdirilməsinə dair təkliflər vermək;

vəzifələrinin icrası ilə əlaqədar digər hüquqları həyata keçirmək.

## V. İdarənin fəaliyyətinin təşkili

9. İdarənin strukturu və ştat vahidlərinin sayı Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən təsdiq olunur.

10. İdarəyə Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən rəis rəhbərlik edir. Rəis İdarəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

11. İdarə rəisinin Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini vardır. İdarənin rəis müavini ona həvalə edilmiş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyır.

12. İdarənin rəis müavini və işçiləri öz funksiyalarını vəzifə və iş bölgüsünə əsasən yerinə yetirirlər.

13. İdarənin işi fəaliyyət istiqamətləri üzrə, habelə Nazirliyin və İdarənin iş planları əsasında həyata keçirilir.

14. İdarədə işin təşkili və vəziyyəti, qarşıda duran vəzifələr mütəmadi olaraq əməliyyat müşavirələrində müzakirə edilir.

15. İdarənin rəisi:

İdarənin işini təşkil edir, onun fəaliyyətinə rəhbərliyi həyata keçirir;

İdarənin işçiləri arasında vəzifə və iş bölgüsü aparır;

İdarənin işçilərinin üzərinə düşən vəzifələrin yerinə yetirilməsinə, icra və əmək intizamına nəzarət edir;

müstəntiqin bütün səlahiyyətlərindən istifadə edir;

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş hüquq və vəzifələri həyata keçirir;

cinayət işləri üzrə hərtərəfli, tam və obyektiv istintaq aparılması üçün zəruri təşkilati tədbirlər görür;

həbsdə saxlama və ibtidai araşdırma müddətlərinin uzadılması barədə müstəntiqlərin vəsatətlərini ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora təqdim edir;

ibtidai istintaq məlumatlarının yayılmaması üçün tədbirlər görür;

səlahiyyətləri çərçivəsində, cinayət işləri üzrə hüquqi yardım haqqında qanunvericilikdən və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin icrasını təmin edir;

İdarənin müvafiq hesabatlarını və iş planını təsdiq edir, onun vaxtında və keyfiyyətli icrasını təmin edir;

İdarənin fəaliyyəti ilə bağlı məsələlərin Nazirliyin kollegiyasının müzakirəsinə çıxarılması üçün təşəbbüs göstərir, bu məsələlərin kollegiyanın müzakirəsinə hazırlanmasını təmin edir;

Nazirliyin iş planında və kollegiya qərarlarında, Nazirlik üzrə əmr və sərəncamlarda nəzərdə tutulmuş aidiyyəti tədbirlərin yerinə yetirilməsini təmin edir;

İdarəyə yeni qəbul edilmiş işçilərin peşə hazırlığının artırılması üçün tədbirlər görür və onların işinə bilavasitə nəzarət edir;

İdarənin fəaliyyətinin təkmilləşdirilməsi sahəsində tədbirlər görür, bu barədə Nazirliyin rəhbərliyinə təkliflər verir;

İdarədə işçilərin vəzifəyə təyin və vəzifədən azad edilməsi, həvəsləndirilməsi, onlara xüsusi rütbə və ixtisas dərəcələrinin verilməsi, intizam tənbeh tədbirlərinin tətbiq olunması, habelə işçilərin vəzifədən kənarlaşdırılması ilə bağlı Nazirliyin rəhbərliyinə təkliflər verir;

vətəndaşları qəbul edir;

İdarənin fəaliyyətini Nazirliyin sisteminə daxil olan qurumlarla əlaqələndirir;

səlahiyyətlərin bir hissəsinin həyata keçirilməsini müavininə tapşırır;

öz səlahiyyətləri daxilində digər məsələləri həll edir.

xidməti fəaliyyətlə bağlı Nazirliyin rəhbərliyinin tapşırıqlarını yerinə yetirir.

16. İdarənin rəis müavini:

icraatına verilmiş material və cinayət işləri üzrə araşdırma aparmaqla müstəntiqin səlahiyyətlərindən istifadə edir;

İdarədə kargüzarlıq işini təşkil edir;

İdarənin fəaliyyəti ilə bağlı məsələlərin Nazirliyin kollegiyasının müzakirəsinə hazırlayır;

İdarənin işçilərini cəlb etməklə istintaq təcrübəsini ümumiləşdirir, istintaqın səmərəliliyinin artırılması məqsədilə tədbirlər barədə təkliflər, statistik və digər hesabatlar, İdarənin iş planının layihəsini hazırlayır və İdarə rəisinə təqdim edir;

İdarənin iş planının vaxtında və keyfiyyətli icrasını təşkil edir;

ciddi uçotda olan prosessual sənədlərin, blankların, protokol formalarının saxlanılması qaydasına və onların uçotunun düzgün aparılmasına nəzarət edir;

İdarənin fəaliyyətinin təkmilləşdirilməsi üzrə İdarənin rəisinə təkliflər verir;

vətəndaşların qəbulunda iştirak edir;

İdarənin rəisi vəzifələrini icra edə bilmədikdə onun vəzifələrini icra edir;

ona tapşırılmış sahədə işin düzgün təşkil və icra edilməsini təmin edir;

peşə hazırlığının yüksəldilməsi məqsədilə qanunvericiliyi daim öyrənir, işgüzar və peşə keyfiyyətlərinin yüksəldilməsinə çalışır;

xidməti fəaliyyətlə əlaqədar Nazirliyin rəhbərliyinin və İdarənin rəisinin tapşırıqlarını yerinə yetirir.

17. Böyük müstəntiq və müstəntiq İdarənin fəaliyyət istiqamətlərinə uyğun olaraq, vəzifə və iş bölgüsünə əsasən aşağıdakı işləri icra edir:

törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş məlumatlara baxır, cinayət işinin başlanması və ya cinayət işinin başlanmasının rədd edilməsi barədə qərar qəbul edir;

həvalə olunmuş cinayət işini öz icraatına qəbul etməklə cinayət-prosessual qanunvericiliyinin tələblərinə uyğun istintaq edir, ibtidai istintaqın hərtərəfli, tam və obyektiv aparılmasına görə məsuliyyət daşıyır;

prokurorun müvafiq qərarına əsasən istintaq qruplarına rəhbərlik edir, qrupda olan müstəntiqlərin qanunlara əməl etmələrinə nəzarət edir, həmin işlər üzrə istintaqın hərtərəfli, tam və obyektiv aparılmasına məsuliyyət daşıyır;

icraatında olan işlərin saxlanmasına və qorunmasına, habelə ibtidai istintaq məlumatlarının yayılmamasına şəxsən məsuliyyət daşıyır;

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş hüquq və vəzifələri həyata keçirir;

peşə hazırlığının yüksəldilməsi məqsədilə qanunvericiliyi daim öyrənir, işgüzar və peşə keyfiyyətlərinin yüksəldilməsinə çalışır, əmək və icra intizamına əməl edir, vəzifələrin vaxtında və düzgün icra edilməsinə görə məsuliyyət daşıyır;

xidməti fəaliyyətlə bağlı İdarənin rəhbərliyinin digər tapşırıqlarını yerinə yetirir.

18. Məsləhətçisi (kompüter üzrə):

İdarənin fəaliyyəti ilə bağlı informasiyalar üzrə məlumat bazaları yaradır və bu bazaları aktual saxlayır;

İdarənin rəhbərliyinin tapşırığına əsasən məlumat bazalarında olan informasiyaları təsnifatlaşdıraraq onlara təqdim edir;

məlumat bazalarının mühafizəsini təmin edir, mütəmadi olaraq məlumat bazalarının sığorta nüsxələrini yaradır;

peşə hazırlığının yüksəldilməsi məqsədilə informasiya texnologiyalarını daim öyrənir, İdarədə informasiya texnologiyalarının səmərəli istifadəsinə dair tədbirlər görür, bu barədə təkliflər verir, işgüzar və peşə keyfiyyətlərinin yüksəldilməsinə çalışır, əmək və icra intizamına əməl edir, vəzifələrin vaxtında və düzgün icra edilməsinə görə məsuliyyət daşıyır;

xidməti fəaliyyətlə bağlı İdarənin rəhbərliyinin digər tapşırıqlarını yerinə yetirir.

19. Baş mütəxəssis (böyük inspektor), böyük mütəxəssis (inspektor) vəzifə və iş bölgüsünə əsasən aşağıdakı işləri icra edir :

daxil olan materialları, cinayət işlərini, ərizə və şikayətləri, digər sənədləri, maddi sübutları Nazirliyin Katibliyindən götürür və onların qeydiyyatını aparır;

19.2. daxil olan materialları, cinayət işlərini, ərizə və şikayətləri, digər sənədləri İdarənin rəisinə təqdim edir, onun dərkənarına əsasən onları işçilərə təqdim edir;

19.3. sənədlərin işçilər tərəfindən icra edilməsinin qeydiyyatını aparır, göndərilməsi üçün Nazirliyin Katibliyinə təqdim edir;

19.4. icra olunmuş sənədlərin səliqə ilə işə tikilməsini və İdarənin dəftərxanasında saxlanılmasını təmin edir;

19.5. ona təhvil verilmiş maddi sübutların, habelə, İdarənin dəftərxanasında olan material və cinayət işlərinin saxlanılmasına tam məsuliyyət daşıyır;

19.6. İdarəyə məxsus olan müvafiq möhür və ştampları saxlayır;

19.7. işgüzar və peşə keyfiyyətlərinin yüksəldilməsinə çalışır, əmək və icra intizamına əməl edir, vəzifələrin vaxtında və düzgün icra edilməsinə görə məsuliyyət daşıyır;

19.8. xidməti fəaliyyətlə bağlı İdarənin rəhbərliyinin digər tapşırıqlarını yerinə yetirir.